# "Bayraq mənliyimdir, bayraq kimliyim..."

9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə bölgələrin mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə H.Z.Tağıyev adına şəhər 6 saylı tam orta məktəbinin müəllim və şagirdləri rayondakı Bayraq Muzeyinə ekskursiya ediblər.

Masallı RMİ Cəlilabad rayon Mədəniyyət Mərkəzinin Ağdaş kənd Mədəniyyət evinin təşkilatçılığı ilə "Bayraq qürur mənbəyimizdir!" başlığı altında tədbir keçirilib. Məktəblilər bayrağımıza həsr olunmuş şeirlər söyləyiblər.

İsmayıllı RMİ-nin əhatə etdiyi Şamaxı Dövlət Rəsm Qalereyasında Dövlət Bayrağı Günü münasibətilə sərgi təşkil olunub.

Gəncə RMİ və Gəncə Dövlət Filarmoniyasının təşkilatçılığı, Gəncə ŞİH-nin dəstəyi ilə Dövlət Bayrağı Meydanında bayram tədbiri keçirilib. Tədbirdə yeni nəşr olunmuş "Gəncə şəhidləri" və "Zəfər salnaməsi" kitablarının təqdimatı keçirilib. Sonra geniş konsert proqramı təqdim olunub.

Goranboy rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Bayraq mənliyimdir, bayraq kimliyim, Bayraq öz yurduma öz hakimliyim" mövzusunda tədbir keçirilib.



Kürdəmir RMİ İmişli rayon Mədəniyyət Mərkəzi, Uşaq musiqi məktəbi və İmişli Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Bir kərə yüksələn bayraq..." adlı tədbir keçirilib. Vətənpərvərlik ruhlu musiqi nömrələri, şeir parçaları səsləndirilib.

Mədəniyyət.-2021.- 12 noyabr.- S.4.